**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

***Əlyazması hüququnda***

**YEGANƏ SABİR qızı HÜSEYNOVA**

# BƏXTİYAR VAHABZADƏNİN POEMALARI

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Respublikasi Təhsil Nazirliyi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Bədirxan Balaca oğlu Əhmədov,**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Rafiq Yusif oğlu Əliyev,**
filologiya üzrə elmlər doktoru, professor

**Səfurə Hüseyn qızı Quliyeva,**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Azərbaycan və dünya ədəbiyyatı kafedrası

Müdafiə "____"__________ 2018-ci il saat ____da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" _________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
**Elmi katibi:** **filologiya üzrə fəlsəfə doktoru**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. XX əsr Azərbaycan poeziyasının ümumi mənzərəsini Bəxtiyar Vahabzadənin adı və imzası olmadan təsəvvürə gətirmək mümkün deyil. 1940-cı illərin birinci yarısında sənətə qədəm qoyan şair altmış ildən çox yaradıcılıq yolu keçmiş,ölkədə və dünyada baş verən hadisələrə fəal vətəndaş və sənətkar mövqeyindən yanaşmışdır.

Dövrün və siyasi sistemin təzyiqinə baxmayaraq, şair poeziya və dramaturgiyasında həyat həqiqətlərinin poetik ifadəsini verə bilmiş, məhz vətəndaşlıq mövqeyinə, milli ruhun təcəssümünə görə yalnız ölkədə deyil, onun hüdudlarından kənarda, keçmiş ümumittifaq məkanı, bütün türk dünyası, Avropa və Amerikada da tanınmışdır. O da danılmaz həqiqətdir ki, Azərbaycanda və keçmiş Sovetlər Birliyində olduğu kimi, dünya miqyasında elə bir ictimai hadisə, azadlıq hərəkatı və milli istiqlal mübarizəsi yoxdur ki, Bəxtiyar Vahabzadənin poetik münasibət və nüfuz dairəsindən kənarda qalmış olsun. Bu nöqteyi-nəzərdən yanaşıldıqda Bəxtiyar Vahabzadə, milli olduğu qədər də ümumbəşəri bir sənətkardır. Bu günədək şairin Amerikada 2, Almaniyada 2, Türkiyədə 16, Rusiyada 15, İranda 5 kitabının çap edilməsi onun yaradıcılığının coğrafiyasının genişliyini əks etdirmiş olur. Bəxtiyar Vahabzadə dövrün mürəkkəb həyat həqiqətlərini, dünyanı və bütün insanlığı narahat edən hadisələri ümumiləşdirərək lirik nümunələrlə yanaşı epik poeziyanın gücü ilə də qələmə almağa çalışırdı.Şübhəsiz, epik yaradıcılıqda poema janrı irəli çıxırdı. İctimai ziddiyyətlərlə, siyasi kataklizmlərlə dolu bir cəmiyyəti bütün parametrlərilə təsvir etmək üçün poema ən yaxşı vasitələrdən biri idi. Yaradıcılığının ilk mərhələsindən başlayaraq Bəxtiyar Vahabzadə "Dostluq" (1944), "Aylı gecələr" (1947), "Toxucu qız" (1949), "Əbədi heykəl" (1951), "Sadə adamlar" (1952-54), "İztirabın sonu" (1956), "Şəbi-hicran" (1958), "Gülüstan" (1959), "Etiraf" (1961) və s. otuzdan çox poemasında bədiilik meyarına əməl etməklə, dövrün ictimai-siyasi, mənəvi-əxlaqi hadisələrini təsvir etməyə nail olur.

**Mövzunun işlənmə dərəcəsi.** Bəxtiyar Vahabzadə irsinin öyrənilməsi sahəsində müxtəlif tədqiqatlar aparılaraq, qiymətli monoqrafiyalar yazılmışdır. Bəzi tədqiqatlarda və məqalələrdə bu barədə qismən söz açılsa da, geniş araşdırmalar aparılmamış, yaradıcılığının mühüm sahələrindən biri olan poemaları elmi tədqiqata cəlb edilməmişdir. Ədəbi tənqidin ayrı-ayrı məqalələrini, poeziyaya həsr olunmuş icmal məqalələri nəzərə almasaq, şairin yaradıcılığına ayrıca çox az tədqiqat əsərləri həsr

olunmuşdur. Ədəbiyyatşünas İfrat Əliyevanın "Bəxtiyar Vahabzadənin lirikası" (1983) monoqrafiyasını ilk fundamental araşdırma hesab etmək olar. ƏdəbiyyatşünasY. Qarayev, Ş.Salmanovun "Poeziyanın kamilliyi", Nizami Cəfərovun "Bəxtiyar Vahabzadə", Mail Dəmirlinin ayrı-ayrı müəlliflərin məqalələrindən ibarət tərtib etdiyi iki hissəli "Türk dünyasının Bəxtiyarı" kitabları bu istiqamətdə atılmış addımlardandır. Bu cəhətdən şairin yaradıcılığının müxtəlif problemlərinə həsr olunmuş tədqiqatçı F.Səfiyevanın "Bəxtiyar Vahabzadənin dramaturgiyası", Bayram Gündoğdunun "Bəxtiyar Vahabzadənin publisistikası" tədqiqatlarını xüsusi qeyd etmək lazım gəlir. Bəxtiyar Vahabzadəyə həsr edilmiş simpoziumlarda da şairin yaradıcılığının müxtəlif komponentləri araşdırma obyekti olmuşdur. Şairin ədəbi, bədii, elmi fəaliyyətinə həsr edilmiş "I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumu" (Bakı, Qafqaz Universiteti, 13-15 dekabr, 2012-ci il) da onun yaradıcılığını öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini Bəxtiyar Vahabzadənin mövzu, ideya və sənətkarlıq xüsusiyyətləri ilə zəngin olan poema yaradıcılığı təşkil edir. Tədqiqatda bir sənətkar kimi şairin çoxcəhətli yaradıcılıq axtarışlarının məhsulu olan poemalarının ən səciyyəvi cəhətləri ümumiləşdirilərək təhlil predmeti seçilir, xüsusən epik şeir sahəsində şairin nail olduğu başlıca məziyyətlər əsas tədqiqat obyekti olur. Dissertasiyada şairin keçən əsrin 40-cı illərin birinci yarısından başlayaraq üçüncü minilliyin təxminən birinci onilliyinə qədər qələmə aldığı irili-xırdalı epik nümunələrə müraciət edilir, mövzu və problematika baxımından təsnifatı aparılır, nəzəri təhlil və ümumiləşdirmə əsasında ayrı-ayrı poemalarının ideya-sənətkarlıq xüsusiyyətləri təhlil edilir. Tədqiqatın predmetini şairin poemalarının təşkil etməsi janrın inkişaf yolu, problemləri, strukturu, mövzu müxtəlifliyi, kompozisiyası kimi məsələlərə nəzər yetirməyi, eləcə də şairin poemaları haqqında Azərbaycan və dünya ədəbiyyatşünaslarının elmi, nəzəri fikirləri də təhlilə cəlb olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Epik şeirin XX əsrdə və milli müstəqillik illərində yaranan nümunələri içərisində Bəxtiyar Vahabzadənin poemaları mövzusunun əhatə dairəsi, problemlərin qoyuluşu və bədii həlli, həyat və zamanın təzadları, insanlığı düşündürən aktual problemlərə həsr edilməsi, dərin bədii ümumiləşdirmə ilə seçilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu yöndən yanaşılmaqla, yaradıcılığının ilk dövründən başlayaraq təxminən altmış ildən çox zaman müddətinə qədər qazanılan ideya-sənətkarlıq xüsusiyyətləri,

xüsusən epik şeir sahəsində nail olunan əsas məziyyətləri elmi təhlilə cəlb etmək tədqiqatın başlıca məqsədi və vəzifələrindəndir. Dissertasiyada qarşıya qoyulan əsas vəzifələr bunlardır:

- Bəxtiyar Vahabzadənin poemaları üçün səciyyəvi hesab olunan əlamətdar cəhətləri, mövzu və ideyanın özünün diktə etdiyi ictimai-sosial mətləbləri sistemli şəkildə araşdırmaq;
- Etik-əxlaqi, mənəvi problemlərin şairin epik yaradıcılığında aparıcı yeri və mövqeyini üzə çıxarmaq;
- Poemalarında ölkədə, eləcədə yaxın və uzaq xaricdə baş verən hadisələrin fəal vətəndaş mövqeyindən qiymətləndirilməsi, ictimai-siyasi proseslərə həssaslıqla yanaşmanın fərdi təzahür və əlamətlərini üzə çıxarmaq;
- Milli müstəqillik, azadlıq və istiqlal düşüncəsinin epik irsində məxsusi yeri və mövqeyini müəyyən etmək;
- İnsan və zaman çevrəsində insan xarakterinin və psixologiyasının məruz qaldığı təzad və ziddiyyətlərlə müşaiyət olunan məqamlar və onu doğuran ictimai-sosial amillər üzərində təhlillər aparmaq;
- Lirik şeirlərində olduğu kimi, epik yaradıcılığında da nəzərə çarpan dərin fəlsəfi mühakimələrin, fikir və düşüncə vüsətinin yaratdığı hissi-emosional ovqat və təəssüratın xarakter və səciyyəsini araşdırmaq və s.

**Tədqiqatın metodologiyası.** Dissertasiya işində tədqiq olunan yaradıcılıq problemləri Azərbaycan ədəbiyyatşünaslıq elminin tarixən mövcud olan milli ənənələri zəminində araşdırılmış, elmi-tədqiqatın xarakter və istiqamətindən bilavasitə asılı olaraq tarixi-müqayisəli və tipoloji metod əsas istinad və prinsip kimi seçilmişdir. Belə bir nəzəri-metodoloji zəmində Azərbaycan epik şeirinin inkişaf təkamülü, mövzu və sənətkarlıq məsələləri təhlilə gətirilir, şairin yaradıcılığında poema janrının qazanmış olduğu yeni keyfiyyət və əlamətlər zəngin fakt və materiallar əsasında araşdırılır. Ümumilikdə sənətkarın yaradıcılıq irsinə məxsus bütövlüyü və ardıcıllığı yalnız bir ədəbi növün və janrın timsalında müəyyənləşdirmək qeyri-mümkündür. Ona görə də dissertasiya işində elmi məqsəd və niyyətdən asılı olaraq şairin yaradıcılığında belə məziyyətləri büruzə verən səciyyəvi cəhətlər ümumi bir yanaşma metodu əsasında həm lirik şeirdə, həm də epik və dramatik növdə qələmə alınan əsərlərdə, xüsusən publisistik düşüncələrin məhsulu olan yazılarda və elmi-nəzəri xarakter daşıyan məqalə, çıxış və tədqiqlərə istinad edilərək müəyyən fikir və mülahizə irəli sürülür, şairin yaradıcılığı tədqiq edilən araşdırmalardan hasil olan nəticələr ümumiləş-

dirilir, tədqiqat işinə əsas münasibət obyekti kimi cəlb edilir. Araşdırılan yaradıcılıq məsələləri geniş və əhatəli bir tədqiq istiqamətində aparıldığı üçün, milli və dünya ədəbiyyatşünaslığının mütərəqqi nailiyyətlərindən məqsədəuyğun şəkildə yararlanmağa cəhd göstərilir.

**İşin elmi yeniliyi.** Dissertasiya işi Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq elmi-nəzəri cəhətdən tədqiq olunur, filologiya üzrə fəlsəfə doktorluğu səviyyəsində araşdırılır. Eyni zamanda,

- Bəxtiyar Vahabzadənin çoxşaxəli ədəbi irsinin mühüm bir hissəsi– epik və lirik poemaları yeni elmi yanaşma və baxış bucağından təhlil edilir;
- Şairin sovet hakimiyyətinin, onun siyasi-ideoloji təzyiq və nəzarəti altında bir çox ictimai-sosial problemlərə bədii münasibətinin fərqlilik aspekti üzə çıxarılır;
- Totalitar rejimin özünün belə etiraz və sərt protestlərə layiq olduğu bir zamanda bəzən hadisələri, təsvir obyektini yaxın və uzaq coğrafi ərazilərə yönəltməsi B.Vahabzadənin cəsarətli yaradıcılıq axtarışları kimi səciyyələnir;
- Tarixən bütöv Azərbaycanın parçalanaraq ikiyə bölünən bir ərazisində-cənubda baş verən irtica və müstəmləkəçilik əleyhinə etiraz dalğalarının önündə gedən fədailər, ərəb dünyasında, Asiya və Amerika qitəsində baş verən ictimai proses və hadisələrə həsr olunan poemaları ilk dəfə elmi-nəzəri cəhətdən tədqiq edilir;
- Cəmiyyətin mənəvi-əxlaqi problemlərini, ictimai konfliktləri orijinal üsul və vasitələrlə təsvir etmək, yeni cəmiyyət quruculuğunun ideoloji-fəlsəfi əsaslarını yaratmaq kimi məsələlərə münasibət bildirilir;
- Milli müstəqillik, azadlıq ideyalarının şairin poemalarında bədii təsvirindən keçərək ictimai xarakter alması ilk dəfə olaraq əsaslandırılır və yeni elmi münasibət prizmasından təhlilə cəlb edilir.

**İşin elmi-təcrübi əhəmiyyəti.** Tədqiqat işində ötən əsrin 40-60, 70-80-ci illər və müstəqillik dövrü yaradıcılığının məhsulu olan əsərləri konkret bir elmi problem ətrafında təhlil edilir. Dissertasiya işinin elmi siqlət və sanbalını müəyyən edən amillərdən biri də budur ki, tədqiqat zamanı şairin sonralar çoxcildlik külliyyatına daxil etmədiyi poemaları da dövri mətbuat səhifələrindən və arxiv materialları içərisindən tapılaraq tədqiqata cəlb edilmiş, nəticə etibarilə şairin epik şeir sahəsində keçmiş olduğu yaradıcılıq təkamülü məhz belə obyektiv və prinsipial faktlar əsasında üzə çıxarılmışdır.

Elmi tədqiqat işinin nəticələrindən hasil olan müddəalardan

Azərbaycan ədəbiyyatı tarixinin konkret bir dövrünü və müstəqillik illərini əhatə edən hissələrinin yazılmasında, orta və ali məktəb dərslik və proqramlarında, şairin yaradıcılığını tədris edən xüsusi ixtisas kurslarında, əsərlərinin tam küliyyatının hazırlanmasında etibarlı elmi mənbə kimi istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiyanın mövzusu Gəncə Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında müəyyənləşdirilmiş, Gəncə Dövlət Universitetinin Elmi şurasında təsdiq edilmiş, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnistitutu yanında Ədəbiyyatşünaslıq üzrə Problem şurasının oktyabr 1996-cı il tarixli iclasında (protokol № 9) təsdiq olunmuşdur. Tədqiqat işinin əsas nəticələri kafedra iclaslarında və elmi seminarlarında müzakirə edilmiş, kafedranın zəmanəti ilə mövzu üzrə məqalələr nəşr olunmuşdur. Dissertasiyanın son variantı 26 oktyabr 2016-cı tarixdə kafedranın genişləndirilmiş iclasında (protokol №6) müzakirə edilərək müdafiəyə hazır olduğu bildirilmişdir. İş Gəncə Dövlət Universitetinin Elmi şurasında müzakirə olunaraq müdafiə olunmaq üçün AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnistitutu yanında Dissertasiya Şurasına göndərilmişdir.

Tədqiqatın əsas müddəaları və nəticələri dissertantın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnal və məcmuələrdə, eyni zamanda xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında dərc etdirdiyi elmi məqalələrində, onun bir sıra beynəlxalq və respublika səviyyəli elmi konfrans, sessiya və seminarlardakı məruzə və çıxışlarında öz əksini tapmışdır.

**İşin quruluşu.** Dissertasiya işi giriş, üç fəsil və hər bir fəsil iki fəsildaxili bölmələrdən, nəticə və tədqiqat zamanı istifadə olunmuş elmi-nəzəri mənbələrin siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, işin nəzəri-praktik əhəmiyyəti, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, aprobasiyası və quruluşu haqqında danışılır.

Dissertasiya işinin **"Poema Bəxtiyar Vahabzadə yaradıcılğının ifadə forması kimi"** adlanan I fəsli iki yarımfəsildə öyrənilir. Birinci yarımfəsildə **"Poema janrı və onun Bəxtiyar Vahabzadə yaradıcılığında yeri"** araşdırılır.

Tarix boyu şeir sənətinin davamlı və fasiləsiz inkişaf təkamülü

onun mövzu və məzmun, janr-struktur əlamətlərinə də mühüm zəmin yaratmışdır. Lirik şeirdə daha çox fərdi hiss və duyğulardan çıxış edərək müəyyən poetik tərənnümvə təəssüratlar aparıcılıq qazanırsa, mənzum, epik poeziya nümunələrində hadisə və süjet planında geniş həyat həqiqətlərinə münasibət bildirilir, cəmiyyətdə baş verən hadisələrə fəal müdaxilə nəzərə çarpan yaradıcılıq faktı kimi maraq kəsb edir.Epik şeirin Azərbaycan ədəbiyyatında müstəsna mövqeyini üzəçıxaran tədqiqatlarda onun yaranma tarixi, ictimai-tarixi şəraitlə bağlılığı kimi mühüm xarakterik məqamlar ön plana çəkilir. Epik şeirin təşəkkülündə, yetkin bir səviyyəyə gəlib çatmasında folklor mətnləri, mif və əsatirlərdəki süjet və obrazların fəal bir mövqe qazanması məhz bu amillə izah olunması müəyyən mənada təbii və inandırıcı görünür. Professor Azadə Rüstəmova “Azərbaycan epik şeirinin inkişaf yolları” (XII-XVII əsrlər) adlı qiymətli tədqiqatında bu xarakterik cəhəti nəinki Azərbaycan, Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatıüçün, eləcə də bütün dünya xalqlarının ədəbi-bədii təcrübəsi üçün qanunauyğun bir yaradıcılıq təcrübəsi kimi dəyərləndirərək belə bir yekun nəticəyə gəlir ki, bütün qədim xalqlarda olduğu kimi, azərbaycanlıların da klassik epik şeirinin ilk özəyini əsatirlər, miflər təşkil edir”[1]. Əsrlər boyu Azərbaycan poeziyası janr zənginliyini saxladığı kimi, mövzu və problematika baxımından da mərhələli bir yol keçmişdir. Azərbaycan ədəbiyyatında XX yüzillik boyu poema janrının qazanmış olduğu mühüm yaradıcılıq təcrübəsini və başlıca sənətkarlıq məsələlərinə ayrıca tədqiqat əsəri həsr edən Rafiq Yusifoğlu zəngin ədəbi fakt və nümunələrdən çıxış edərək yazır: “Poema elə universal janrdır ki, başqa ədəbi növlərə məxsus ən yaxşı keyfiyyətləri, sənətkarlıq komponentlərini özünküləşdirə bilir. Həm lirik, həm epik, həm də publisistik ünsürlərin vəhdətdə qaynağı və sintezi bu janrın geniş imkanlarını təmin edən ən ümdə cəhətlərdəndir”[2]. Epik şeirə diqqət və maraq sənət aləminə gəldiyi ilk dövrlərdən başlayaraq Bəxtiyar Vahabzadəni ciddi düşündürmüş, müxtəlif və rəngarəng mövzularda yazılan epik əsərlərində həyati və bəşəri problemləri qaldırmış, azadlıq və istiqlalın dünyanın ayrı-ayrı qitələrində və məmləkətlərində dinindən, milli mənsubiyyətindən və

---

[1] Azadə R. Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər). Bakı:Elm, 1975, s 15.

[2] Yusifoğlu R. (Əliyev). Azərbaycan poeması: axtarışlar və perspektivlər (XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri). Bakı: Elm, 1998, s 3.

irqindən asılı olmayaraq, bütün insanlıq üçün əvəzsiz nemət olduğunu bəyan edən fikir və düşüncələr irəli sürmüşdür. Dövrün poema mənzərəsinin xarakterini tənqidçi Ş. Alışanlı aşağıdakı şəkildə ifadə edir: "Bir və ya bir neçə qəhrəmanın timsalında ümumiləşdirmələr apararaq konkret dövrün ümumi səciyyəsi haqqında söz demək lirik-epik, epik poemalarımızda əsas yer tuturdusa da, lirikliyin daha üstünlük kəsb eydiyi müasir lirik-epik poemalarımızda şəraitin, dövrün müəyyən lövhəsi təsvir olunur və lirik qəhrəmanın hadisələrə münasibəti, psixoloji təhlilləri, düşüncə tərzinin assoaiativ düzümü poemanın quruluşunda yeni keyfiyyət kimi meydana çıxır. Lirik qəhrəmanın "özünü ifadəsi" təqdir olunan fikrin əsas daşıyıcısına çevrilir, onun düşüncələri poemada müəyyən süjet rolu oynayır"[1].

Birinci fəslin ikinci yarımfəsli **"Bəxtiyar Vahabzadənin poemalarının janr, mövzu və problematika müəyyənliyi"** adlanır. Bəxtiyar Vahabzadə poemalarının bir çoxu janrı mövzu, ideya, struktur baxımından zənginləşdirir. Əgər "Gülüstan" poeması ideya cəhətdən janrı inkişaf etdirirsə, "Muğam" poeması struktur və mövzu baxımından yeni və orijinal səslənir. "Gülüstan"la şair xalqın milli siyasi düşüncə tərzini, "Muğam"la milli sərvətimizin mənəvi gözəlliklərini açmağa nail olur. "Muğam" poeması yalnız milli xalq musiqisinin mahiyyətini açmaqla kifayətlənmir, həm də janrı mükəmməl forma və məzmunun vəhdətilə inkişaf etdirir. "Şəbi-hicran", "Ağlar-güləyən", "Yollar-oğullar", "Həyat-ölüm", "Qəm içində sevinc", "Təzadlar", "Qiymət", "İkinci ömür", "Vətən mənəm, mən vətənəm", "Atılmışlar", "Amerika gözəli", "Bağışlayın, səhv olub", "Şəhidlər" və s. poemaları da orijinal janr elementləri, mövzu və problematikası ilə janrın yeni inkişafını şərtləndirir. Bu poemalarda etik-mənəvi məsələlər, şəxsiyyətin fərdi keyfiyyətləri, milli ideal, amal və bir məqsəd uğrunda mübarizəsi, məhz həyatın çətin sınaqlarından keçirilərək ümumiləşdirilir. Sosrealizmin ən qızğın çağında belə, şair onun çərçivələrini dağıdaraq qapalı cəmiyyətdə şəxsiyyət və ləyaqətin ucalığı, iradi keyfiyyətləri onun nəsillər üçün örnək olacaq ömrünün və mübarizəsinin mahiyyətini üzə çıxarmağa çalışır. Müxtəlif yaradıcılıq dövrlərində qələmə alınan "Yollar –

[1] Alışanov Ş. Poema: Janrın imkanları. Sosialist realizmi müasir mərhələdə. Redaksiya heyəti: M.Cəfər,Y.Qarayev, Ə.Ağayev; Az SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: Elm, 1988, s.161

oğullar", "Mərziyyə" və "Ləyaqət" kimi epik əsərlərdə bu cəhət üst qatda özünü büruzə verən yaradıcılıq məziyyəti olaraq səslənir. "Qiymət" poemasında milli mentalitetə dayanan mənəvi meyarları təsvir edərək tələbə qiyməti kontekstində həyati, fəlsəfi nəticələr çıxarılır. "Şəbi-hicran" poemasında Füzuli qəmini, kədərini ifadə edə bilən yeni poetik formadan istifadə edir. Bir sözlə bu poemalar zamandan, mövzudan, məzmundan asılı olaraq müxtəlif forma və struktur yeniliyilə əvəz olunur ki, bu da şairin poema yaradıcılığındakı inkişaf mərhələlərini aydın şəkildə ifadə edir. Bu inkişafın necə getdiyini, hansı mərhələlərdən keçdiyini görmək üçün Şairin yaradıcılığının ilk mərhələsinə nəzər salmaq kifayətdir.

Bəxtiyar Vahabzadənin ilk poemalarında ("Dostluq" (1944), "Aylı gecələr" (1947), "Toxucu qız" (1949), "Əbədi heykəl" (1951), "Sadə adamlar" (1954), "İztirabın sonu" (1956), "Şəbi-hicran" (1958) müasir həyat həqiqətlərinə maraq, zamanın gerçəkliklərinə, narahat və həyəcan doğuran məqamlarına  fəal münasibət zaman-zaman yetkin bir səviyyə kimi formalaşmağa istiqamət alan başlıca yaradıcılıq məziyyəti kimi diqqəti çəkir. Şairin ilk poemalarında mövzu, problem, süjet yeknəsəqliyi olsa da, konfliktin bədii həllinin orijinallığı baxımından tamamilə seçilirdi. Bu poemalarda şair canlı epik, lirik təsvirlərilə oxucunu inandıra bilir, məntiqi poetik mülahizələrilə yeni insan xarakterləri yaradırdı.B.Vahabzadənin poema yaradıcılığnın  birinci mərhələsindəki  mövzu, janr, süjet axtarışları ikinci mərhələdə daha da təkmilləşmiş şəkildə davam və inkişaf  etdirilir, süjet-kompozisiya, konflikt və xarakter kimi poetik  struktura məxsus komponentlərdə nəzərə çarpan qüsur və nöqsanlar tədricən aradan qaldırılır, hadisə və situasiyaların dinamik inkişafına zəmin yaradan  məqamlar fəlsəfi-epik ümumiləşdirmələrlə əvəzlənir.

Dissertasiya işinin II fəslində **"Bəxtiyar Vahabzadənin poemalarında cəmiyyətin problemləri"** təhlilə cəlb edilmişdir. Bu fəslin birinci yarımfəsli "**Bəxtiyar Vahabzadənin poemalarında insan və zaman**" adlanır. İnsan-şəxsiyyət, zaman-dünya və onların bir-birilə qarşılıqlı münasibətlərinin həmişə ədəbi-ictimai humanitar fikri düşündürən aktual və ümumbəşəri problemlər kimi prioritet istiqamət və sahələrə çevrilməsi heç də təsadüfi hal hesab olunmamalıdır. Çünki insan bir fərd və bioloji varlıq olmaqdan başqa, həm də cəmiyyətin ictimai-mədəni, sosial-iqtisadi sferasında özünəməxsus yer və mövqe tutur. İnsanın dar mənada yaşadığı mühitlə, böyük mənada dünya ilə münasibətlərinin bir sıra elə səciyyəvi cəhətləri var ki, onu birmənalı

şəkildə pozitiv yanaşma kimi qəbul etmək çətindir. Bu, həyatın və bütövlükdə dünyanın barışmaz ziddiyyətlərini, təzadlı məqamlarını da açıq-aydın büruzə verir.

İnsanın şəxsiyyət səviyyəsinə qədər keçdiyi mənəvi təkamül prosesi dini, etik-əxlaqi, sosial-fəlsəfi yönlərdən ona münasibəti də bir zərurət doğurur, elmin, incəsənətin ayrı-ayrı sahələri bu əbədi və əzəli problemə müxtəlif baxış bucaqlarından gur işıq salmağa cəhd göstərir. Heç şübhəsiz ki, insanı (şəxsiyyəti) bütün tərəf və yönlərdən öyrənmək və təhlil predmeti seçmək ədəbiyyatın da, bədii yaradıcılığın da qarşısında dayanan taleyüklü məsələlərdəndir. Bu baxımdan ədəbiyyatın "insanşünaslıq elmi" (Maksim Qorki) adlandırılması təbii ki, obyektiv və inandırıcı görünür. İnsanın iç dünyasına baş vurmaq, onun qəlb aləminə məxsus əlamət və xüsusiyyətləri, müxtəlif situasiyalardakı hal və vəziyyəti, ovqat və psixologiyanı özünəməxsus şəkildə canlandırmaq və ifadə etmək söz sənətinin, ədəbi-bədii düşüncənin qarşısında dayanan mühüm yaradıcılıq vəzifələrindən biridir. Dünya ədəbiyyatının, ayrı-ayrı milli ədəbiyyatların tarixən təşəkkül tapan zəngin yaradıcılıq təcrübəsi, bu istiqamətdəki axtarışları da belə bir yekun nəticəyə gəlməyə tam əsas verir. Artıq insanın bir problem kimi öyrənilməsinə artan maraq son onilliklərdə daha intensiv və yüksələn xətt üzrə inkişaf etməkdədir. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev İsmayıl Vəliyevin "Ədəbiyyatda insan konsepsiyası; tarixi təşəkkülü və inkişaf mərhələləri" monoqrafiyasına yazdığı "Sənətin ilkin və əbədi mövzusu – insan problemi" adlı ön sözündə belə bir doğru qənaətə gəlir ki, "İnsan problemi" tarixən ən qədim və ən ciddi problemdir, elmin və sənətin daimi mövzusudur. Bu problem cəmiyyətin, təbiətin, eyni zamanda elmi-fəlsəfi təfəkkürün, bədii surətlərin axtarışlarının əsası hesab olunur. Dünyanın dərki, bəşər cəmiyyətinin inkişafı və idarə olunması, tarixi sivilizasiya məsələləri məhz insanla, onun fiziki və intellektual təkamülü ilə bağlıdır. Ona görə də insanı problem kimi götürmək, onu öyrənmək zəruridir"[1]. Son illərin tədqiq xarakterli monoqrafik araşdırmalarında hətta insan-sənət, sənət-insan qütblərində yaranan vəhdət və harmoniya da prioritet münasibət kimi önə çəkilir: "Sənətdə insan problemi əbədi, bitməyən, daim öyrənilən, təkmilləşən, eyni zamanda zəmanəyə, dövrə, fərqli estetik baxışlara görə təhlil olunan daimi mövzudur. Burada tarixilik, dünyəvilik, bəşərilik xüsusiyyətləri nə

[1] Vəliyev İ. Ədəbiyyatda insan konsepsiyası. Tarixi təşəkkülü və inkişaf mərhələləri. Monoqrafiya. Bakı: Günəş, 1999, s 3.

qədər ümumidirsə, millilik və fərdilik də bir o qədər fərqlidir, ayrıcadır. İnsan ədəbiyyatın daimi, əbədi mövzusudr. İnsan intellektual, mənəvi-estetik inkişafının müəyyən mərhələsində sənət əsəri yaradırsa, sənət də öz növbəsində bədii insanı, onunobrazını və düşüncələrinin estetik modelini formalaşdırır"[1].

Şairin poemaları üçün qəhrəman seçilən surətlər adi məktəblidən tutmuş, azadlıq mücahidləri, böyük sənət dühası ilə seçilən söz və qələm sahibləri olan şair-mütəfəkkirlərdir. "Etiraf", "Yollar-oğullar", "Şəbi-hicran", "Ağlar-güləyən", "Həyat-ölüm", "Təzadlar", "Uçun, nəğmələrim", "Hər baharın öz qaranquşu", eləcə də "Leninlə söhbət" və s. poemalarında realist kolliziyalar önə çıxır. Şair bu poemalarında ən adi həyat hadisələrini təsvir edərkən belə tezis-antitezis kontekstində hadisələrə nüfuz edərək mürəkkəb situasiyalar təsvir edir. Bu poemalarda müxtəlif dövrlərin və zamanların həqiqət və gerçəklikləri öz əksini tapsa da, aparıcı və prinsipial meyar yenə də şəxsiyyət, cəmiyyət və vətəndaşlıq bir amil olaraq qalır. Bu poemalardan bir neçəsi tarixdə iz qoyan şəxsiyyətlərin həyatından bəhs edir, şair mövzuya müasirlik prizmasından yanaşaraq hadisələri sosial və ictimai konflikt daxilində göstərməyə nail olmuşdur. XVI əsrdə yaşayıb-yaratmış dahi şairimiz M.Füzuliyə həsr olunan "Şəbi-hicran", ictimai satiranı zirvəyə qaldıran M.Ə.Sabirə həsr etdiyi "Ağlar-güləyən", eləcə də tatar şairi Musa Cəlilə həsr edilmiş "Uçun, nəğmələrim" poemalarında dövr və tarixi şəxsiyyətlər fərqli olsa da, onları birləşdirən zaman, insan və cəmiyyət problemi eynidir.

İkinci fəslin **"Mənəvi-əxlaqi problemlərin təsvirində vətəndaş mövqeyi"** adlı ikinci yarımfəslində göstərilir ki, Bəxtiyar Vahabzadənin ayrı-ayrı yaradıcılıq sahələrindəki fəaliyyətində nəzərə çarpan bir sıra yaradıcılıq məziyyətlərini onun poetik irsinin tərkib hissələrindən olan epik yaradıcılığında da izləmək, bütün dərinliyi və sistemliliyi ilə müşahidə etmək mümkündür. Artıq 50-ci illərin sonuna doğru Bəxtiyar Vahabzadənin poemaları mövzu və məzmun baxımından olduğu kimi, ideya və mündəricə baxımından da dəyişir, inkişaf edir. Şairin bu dövr poemalarının süjet xəttinə yeni ictimai konflikt daxil olmaqla yanaşı, vətəndaşlıq qayəsi də nümayiş etdirilir. Şeirlərində özünün poetik üslubunu müəyyənləşdirən şair, poemalarında yeni ictimai konflikt və kolliziyalar təsvir edir. Onun poema yaradıcılığındakı bu keyfiyyət

---

[1] Vəliyev İ. Ədəbiyyatda insan konsepsiyası. Tarixi təşəkkülü və inkişaf mərhələləri. Monoqrafiya. Bakı: Günəş, 1999, s. 10.

dəyişikliyi bir tərəfdən müharibədən sonrakı dünyada gedən proseslərlə əlaqəli idisə, digər tərəfdən 50-ci illər Sovet Azərbaycanında millilik əhvali-ruhiyyəsinin artması ilə bağlı idi. Bu mənada şairin poemalarının mövzu və məzmununda nəzərə çarpan miqyas genişliyi yalnız keçmiş sovet məkanında cərəyan edən xaotik hadisə və proseslərlə məhdudlaşıb qalmır. Keçmiş Sovetlər Birliyində, o cümlədən Azərbaycan gerçəkliyində elə mühüm və aktual problemlər yoxdur ki, şairin ümumi yaradıcılığında ona toxunulmasın, münasibət ifadə olunmasın. Bu, əlbəttə, onun narahat yaradıcılıq xarakterinin bir əlamətdar xüsusiyyətidir. Digər tərəfdən, elə mövzulara və problemlərə rast gəlmək olur ki, şair onu yalnız milli məhdud çərçivə daxilində deyil, daha geniş və miqyaslı sərhədlər hüdudunda münasibət müstəvisinə çıxarmağa meyl və cəhd göstərir. Dünyada, Qərb dünyasında, xüsusən qitənin o tayında–Amerikada baş verən ictimai-siyasi proseslərlə yanaşı Bəxtiyar Vahabzadəni bu cəmiyyətdəki real gerçəkliklər, mənəvi-əxlaqi aşınmalar, böhran və deqradasiyalar da eyni dərəcədə düşündürürdü. Şair poemalarında bəzən zamanı və məkanı dəyişməklə, əslində Azərbaycanda gedən prosesləri də qələmə alırdı. Bu baxımdan 1982-ci ildə qələmə alınan "Amerika gözəli" poemasında qaldırılan problemlər sovet gerçəkliyini göstərməsə də özünün ciddiliyi və aktuallığı ilə maraq kəsb edir.

Bəxtiyar Vahabzadənin sırf mənəvi-əxlaqi problemlərə toxunulan poemaları içərisində "Həyat-ölüm" (1964-1965,"Qiymət" (1970), "Atılmışlar" (1976-1978), və "Ləyaqət" (1986) xüsusi yer tutur. Şübhəsiz ki, poemaların mövzu və ideyasının sırasında ortaq dəyərlərin olduğunu da xüsusi vurğulamaq lazımdır.

"Atılmışlar" (1976-1978) poemasında da şair cəmiyyəti və bütün insanlığı düşündürən bir problemi qabardır–günahsız körpələrin atılmasını valideynlik: analıq və atalıq hissinin öləziməsi faktı kimi önə çəkir. Digər şeir və poemalarında olduğu kimi, burada da şair cəmiyyət hadisələrinə nüfuz edir, cəmiyyəti qurd kimi içindən yeyən hadisə və keyfiyyətləri bədii konfliktə gətirir... "Atılmışlar" poemasında ithafın ünvanı seçılən ana şübhəsizki, əsil nümunə və örnək kimi seçilir. Poemanı şairin anasının xatirəsinə həsr etməsi mövzunun nə dərəcədə aktual və vacib olduğuna işarədir. Poemada şair ananın həyatı, taleyi kontekstində bütöv cəmiyyəti təhlil edir, onun iç üzünü açır. Şair bilərəkdən körpəsini atan ananı ittiham etmir, onu körpəsini atmağa vadar edən cəmiyyəti, onun kataklizmlərini ortaya çıxarır.

"Atılmışlar" poemasında dövrün son dərəcə vacib bir mənəvi-

əxlaqi problemi təhlil edilir; bu poetik təhlillər bütün təzadları ilə aparılır. Bu dövrü həm də şairin yaradıcılığında təzadlar dövrü adlandırmaq olar. Akademik Nizami Cəfərov şairin poema yaradıcılığını təhlil edərkən "Atılmışlar" poeması ilə bağlı belə bir doğru qənaətə gəlir ki: "Təzadlar dövrü"Atılmışlar" poeması ilə sona çatır"[1].60-cı illərin ortalarından başlayan bu dövr 70-ci illərin sonlarında başa çatır. Beləliklə, Bəxtiyar Vahabzadənin 60-cı illərdən başlayaraq poemalarında mənəvi-əxlaqi problemlərin təsviri, cəmiyyət hadisələrinin təhlilinə daha geniş yer ayırmasının şahidi oluruq. Şairin bu dövrdə yazdığı əsərlərdə poema janrının mövzu, məzmun və janr strukturu baxımından zənginləşdiyini aydın görmək olar.

Dissertasiyanın III fəslində **"Bəxtiyar Vahabzadənin poemalarında ictimai-siyasi hadisələrin inikası"** təhlilə cəlb edilmişdir. Bu fəslin birinci yarımfəsli **"Poemalarda ictimai konfilikt və xarakter problemi"** adlanır. O taylı, bu taylı Azərbaycanda və keçmiş Sovet İttifaqında baş verən ictimi-siyasi proseslər B.Vahabzadəni bir sənətkar kimi yalnız narahat etmirdi, bütövlükdə Şərqdə, dünyanın ayrı-ayrı məmləkətlərində, o cümlədən azadlıq savaşına qalxan Asiyada, Avropa ölkələrində, hətta qitənin o tayında–Amerika Birləşmiş Ştatlarında cərəyan edən müxtəlif xarakterli hadisələr şairin maraq dairəsinə, münasibət predmetinə çevrilirdi. Bu mənada doğrudan da B.Vahabzadə milli olduğu qədər də ümümbəşəri sənətkar idi. Əslində onun poeziyasında, həm epik irsində, həm də dramaturgiyasında belə bir əlaqə və vəhdət bütün miqyası ilə qabarıq nəzərə çarpır. Şübhəsiz ki, keçmiş Sovetlər Birliyində gedən ictimai-siyasi proseslər kimi, bütün dünya miqyasında baş verən bir çox səciyyəvi hadisələr də Bəxtiyar Vahabzadənin ciddi və həyəcanla izlədiyi problem məsələlər sırasına daxil idi. Bəzən ciddi senzura nəzarəti şəraitində bu məsələləri olduğu kimi vermək çətinliyi ilə üzləşməsinə baxmayaraq, Bəxtiyar Vahabzadə baş verən hadisələrin coğrafiyasını başqa ərazilərə köçürməklə vəziyyətdən çıxır, gizli yollarla, işarə və rəmzlərlə oxşar situasiyaları elə öz yaşadığı "xalqlar həbsxanası"nda təsvir etməyə müvəffəq olurdu.

Şairin "Yollar-oğullar" (1962-1963), "Təzadlar" (1966-1967) poemalarında müstəmləkə siyasətinin milli azadlıq uğrunda çarpışan xalqların istiqlal mücadiləsinə vurduğu ağır fəsadlar bütün miqyası ilə

---

[1] Cəfərov N. Genezisdən tipologiyaya. Bakı: "Bakı Universiteti" nəşriy., s. 161.

canlandırılır. Bəxtiyar Vahabzadə "Yollar-oğullar" poemasında azadlığın tarix yaratmaq qüdrətini, axıdılan qanların nəticəsində bu ali insani duyğunun pərvəriş tapmasını gerçəkləşdirən amillər üzərində geniş dayanır.Şair axıdılan qanların nəticəsindəqazanılan istiqlalın insanların həyatına sanki bir yaz nəfəsi gətirdiyini obrazlı şəkildə ifadə edir, ilk dəfə olaraq şəhid sözünü burada işlətməklə, bu ali mərtəbəyə ucalanların gördüyü fədakarlığa – məmləkəti gülüstana çevirmək əzminə heyranlığını bildirir. "Vətən mənəm, mən vətənəm" poemasında Bəxtiyar Vahabzadə beynəlxalq aləmdə –konkret olaraq Yaponiyada– baş verən adi hesab ediləcək bir faktı ictimailəşdirməklə əslində vətənpərvərlik hissinin böyük bir önəm daşıdığını ön plana çəkir. Əsərdə poetik təhkiyə Matsurata ilə öz başlanğıcını götürür. Onun yuxusuz gecələr keçirməsi, ilham və yaradıcılığın məhsulu olan sənət əsərlərinin qorunub saxlanmasında, gələcək nəsillərə çatdırılmasında əvəzsiz xidmətlərindən bəhs olunur.

Ümumiyyətlə, təhlilə yönəldilən epik nümunələr bir daha təsdiq edir ki, B.Vahabzadəni bir sənətkar kimi məhdud coğrafi məkanda baş verən müxtəlif xarakterli hadisələrlə yanaşı, bütün dünyanı, tərəqqipərvər bəşəriyyəti həyəcanlandıran və narahat edən məsələlər də eyni dərəcədə düşündürür. Dərin vətəndaşlıq hissləri və sənətkar fərdiyyətinin prinsipiallığı bu mənada şairin ümumi yaradıcılığına sirayət edən məziyyətlər kimi onun epik irsində də özünü bütün tərəfləri ilə nümayiş etdirir.Mənəvi-əxlaqi problemlər Bəxtiyar Vahabzadənin bütün yaradıcılıq sahələrini əhatə edən mövzu istiqamətlərindən biridir. Şairin lirik ricətlərlə zəngin poeziyasında da, dramatik kolliziyalarla zəngin dramaturgiyasında da bunun real əlamət və təzahürlərini aydın şəkildə görmək mümkündür. Mövzu və problematika etibarilə rəngarənglik qazanan publisistik düşüncələrində də bir sənətkar kimi B.Vahabzadə bu amala sədaqətlilik nümayiş etdirir. Bu, bir tərəfdən də mənəviyyatın, əxlaqi dəyərlərin insanın və xarakterin bütövlüyünə təməl olacaq prinsipial müddəa kimi önəm daşımasına verilən qiymət kimi başa düşülməlidir. Şair ən müxtəlif problemlərin həll edilməsində bu amildən bir meyar və vasitə kimi yararlanmağa çalışır, xeyirlə şər qüvvələrin, işıqla zülmətin, haqla nahaqın qarşılaşdığı səhnələrdə ondan bir norma və istinad nöqtəsi kimi istifadə edir.Belə yaradıcılıq məziyyətlərinin şairin epik irsinin səciyyəvi cəhətlərindən birinə çevrilməsi təbii qanunauyğunluqdan irəli gəlir. Belə bir prinsipial düşüncə tərzi şairin yaradıcılıq axtarışlarının ümumi şəkildə mahiyyətinə hopan bir xüsusiyyətdir.

III fəslin **“Poemalarda milli istiqlal mübarizəsinin poetik salnaməsi”** adlı ikinci yarımfəslində qeyd edilir ki, Bəxtiyar Vahabzadə, hər şeydən əvvəl, istiqlal şairidir, şübhəsiz ki, onun yaradıcılıq fəaliyyətini və məziyyətlərini bu səciyyəvi xüsusiyyət dürüst təyin edir. Ancaq bir cəhəti də nəzərə almaq lazımdır ki, o, sənətkar kimi buna heç də keçən əsrin 90-cı illərində–azadlıq və istiqlal uğrunda aparılan mübarizə anlarından başlayaraq nail olmamışdır. Azərbaycanın keçmişi, tarixi, bütövlüyü, istiqlalı, dövlət müstəqilliyi ideyası şairin hələ keçən əsrin 50-ci illərində qələmə aldığı epik əsərlərdə özünü bütün miqyası ilə nümayiş etdirirdi. Hətta 40-cı illərdə yazdığı “Aylı gecələr” poemasında və bir çox şeirlərində azadlıq və müstəqillik ideyaları birbaşa və dolayısıyla təsvir olunmuşdur. Sonrakı yaradıcılığında da bu və ya digər dərəcədə şair bu problemə toxunmuş, milli istiqlalı bədii düşüncədə yaşatmağa çalışmışdır. Ümumiyyətlə, onun yaradıcılığında tarixlə müasirlik həmişə qoşa çıxış edir. Şair əsərlərində tarixi doğru-düzgün təsvir etdiyi kimi, hadisələri müasirlik mövqeyindən dəyərləndirir ki, bu da onun mövzu və problematika dairəsini genişləndirmiş olur. Topqapı sarayından, Gülüstan müqaviləsindən, Pişəvəri hərəkatından yazarkən də şair hadisələrin inikasında tarixilik və müasirlik meyarlarını gözləmişdir. Ciddi totalitar rejim şəraitində bütün açıq-saçıqlığı ilə “qan iyi” gələn bu cür tarixi hadisələrdən, taleyüklü məsələlərdən bəhs etmək heç də asan iş deyildi. “Gülüstan” poemasının yazılmasından sonra şairə qarşı görülən cəza tədbirləri də məhz onun tarixə və taleyüklü məsələlərə münasibətinə hesablanmışdı. Senzura və “Qlavlit” nəzarəti tamamilə fərqli üsul və vasitələrə əl atmaq zərurətini gündəmə gətirirdi. Buna görə də, şair bəzən cərəyan edən hadisələri ya başqa coğrafi ərazilərdə vermək, ya da izi azdırmaq üçün digər ölkələrdəki proseslərdən bir vasitə kimi istifadə etmək məcburiyyətində qalırdı. Elə də olurdu ki, şair dövrün ideoloji meyilləri kontekstində poemalar yazsa da milli düşüncəni və tarixi əks etdirirdi. Bu mənada “Gülüstan”dan sonra “Leninlə söhbət” poemasının yazılmasını da başa düşmək olardı. Sonralar şair Leninə müraciətinin səbəbini belə açıqlayırdı: “Dərsimi” (“Gülüstan” poemasından sonrakı vəziyyətə işarə edir) yaxşıca aldıqdan sonra açıq-saçıq yazmadım, sətiraltı yönətmənliyə keçdim. “Leninlə söhbət” poemam da məhz bu məqsədə xidmət edirdi. Leninin özündən yeddi sitat götürüb hallandırmağa başladım. Məsələn, rüşvət olan bir məmləkətdə ədalət olmaz, yaxşı adam odur ki, məsləki, əqidəsi olsun və s. Və həmin sitatları üzümə qalxan edərək bir ucunu

gətirib bağlayırdım çağdaş dövrə”[1].

Tarixi xəyanət üzündən ikiyə bölünmüş Azərbaycanın taleyi Bəxtiyar Vahabzadənin şeir yaradıcılığında müstəsnalıq qazanan mövzu istiqamətindəndir. Keçən əsrin 40-cı illərində Cənubi Azərbaycanda gedən azadlıq hərəkatının diqqətəlayiq səhifələri “Aylı gecələr” poemasında münasibət predmeti seçilirdisə, 50-ci illərin sonlarında ciddi totalitar rejim şəraitində şair “Gülüstan” kimi son dərəcə dərin psixoloji təfərrüatlarla zəngin bir əsər meydana çıxarır. 1959-cu ildə qələmə alınan bu poema Azərbaycan xalqının birliyi və istiqlalı uğrunda yorulmaz mübarizlər – Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin xatirəsinə ithaf olunmuşdur. Poema B.Vahabzadə yaradıcılığında mühüm yer tutduğu kimi, Azərbaycan poeziyasına və poema janrına da təsir göstərmişdir. Xüsusilə poemanın yazılmasından sonra şairə edilən hücumlar, psixoloji, ideoloji təzyiqlər onun sonrakı yaradıcılığında müəyyən geriçəkilmələrə şərait yaratmışdır.

“Gülüstan” poeması bütövlükdə sovet dönəmində yaranan dissident ədəbiyyatın parlaq nümunəsi olmaqla yanaşı, həm də Azərbaycan xalqının azadlıq, milli müstəqillik və istiqlal düşüncəsinin formalaşmasına, bir məfkurə istiqaməti kimi təşəkkül tapmasına fəal təsir göstərən ədəbi nümunə kimi dəyərləndirilməlidir.

Bəxtiyar Vahabzadənin 1990-cı ilin 20 yanvar hadisələrinə həsr olunan “Şəhidlər” poemasında, Azərbaycan xalqının əsrlər boyu zülm və istismar altında yaşamasına baxmayaraq bu quruluşdan: siyasi-ideoloji yasaq və təzyiqlərdən qanı-canı bahasına qurtarmaq uğrunda aparılan mübarizəsinin ibrətamiz səhnələri ilə qarşılaşırıq.Poemanın misralarında şəhidlərin tarix içərisində öz əməlləri ilə tarix yazmalarından qürur hissi keçirmək, milləti bir anın içində yumruq kimi birləşdirmək əzmi, canlarını xalqın azadlığı yolunda fəda edən Vətən aşiqlərinin adı ilə bağlı olan bir əməl kimi dəyərləndirilməsi xüsusi olaraq nəzərə çarpır.

Beləliklə, Bəxtiyar Vahabzadə yaradıcılığında milli istiqlal düşüncəsinin təsvirinin böyük bir tarixi olduğunu görmək mümkündür. “Şəhidlər” poeması, əslində xalqın milli istiqlalı uğrunda apardığı mübarizənin nəticəsi idi. Buna qədər şair milli istiqlal uğrunda mübarizəsinin müxtəlif mərhələlərinin poetik salnaməsini yaratmağa nail olmuşdur. Əgər sovet dövründə bu mübarizə müxtəlif kontekstdə, müxtəlif şəkildə baş verirdisə,

[1] Vahabzadə B. Sənətkar və zaman:Ədəbiyyat və sənət, həyat və zaman haqqında düşüncələr. Redaktoru: Bəkir Nəbiyev. Bakı: Gənclik, 1976, s. 190.

80-ci illərin sonu 90-cı illərin əvvəllərində açıq tendensiya ilə təsvir edilirdi. Bu da ondan irəli gəlirdi ki, bu mərhələdə xalqı onun istiqlalından cəmi bir neçə il və ay ayırırdı.

Dissertasiya işində Bəxtiyar Vahabzadənin çoxcəhətli ədəbi irsinin aparıcı sahə və istiqamətlərindən biri olan poema yaradıcılığı araşdırılaraq aşağıdakı **Nəticələrə** gəlinmişdir:

– Bir sənətkar kimi şairi yalnız insanın mənəvi-əxlaqi dünyası çox vaxt qayğılandıran, həyəcanlandıran və narahat edən hadisə və proseslər ciddi şəkildə düşündürüb daşındırır. Dissertasiya işində şairin epik irsi belə bir baxış bucağından təhlil edilir, ciddi həyati həqiqətləri, sosial yaşantıları münasibət müstəvisinə çıxaran əsərlərdə qaldırılan problemlər ümumiləşdirilir, mövzu və sənətkarlıq baxımından seçilib fərqlənən nümunələrə istinadən yekdil təsəvvür və qənaət formalaşdırılır.

– Araşdırmalar zamanı Bəxtiyar Vahabzadənin ilk epik nümunələrdə mövzu və problematikasının, süjetinin və janr poetikasının dövrdən, zamandan asılı olaraq dəyişdiyini aydın görmək olur. Şair yaradıcılığının ilk mərhələsində istehsalat, dostluq, əmək məsələlərinə, həyatın qoynuna yeni atılan gənclərin qurmaq-yaratmaq istəyinə, istehsalat qayğılarına maraq göstərdiyi halda, sonrakı dövrdə mənəvi-əxlaqi problemlərə, cəmiyyət hadisələrinə, istiqlal məsələlərinə geniş yer verir. Bunu daha artıq dərəcədə "Dostluq", "Toxucu qız" kimi ilk epik nümunələrdə müşahidə etmək mümkündür. İlk qələm təcrübələri olduğundan, bu əsərlərdə bəzən hadisə içərisində hadisə yerləşdirmək, süjet xəttini lüzumsuz yerə əlavə təfərrüatlarla yükləmək meyilləri də tədqiqatda doğru olaraq göstərilmiş, əksinə, şairin obrazların daxili aləmini, hissi-emosional dünyasını açaraq məqamların daha əhəmiyyətli rolu üzərində dayanması zərurəti vurğulanır. Əlbəttə, şairin sonrakı yaradıcılıq mərhələlərində bu meyillərdən tədricən uzaqlaşmaq cəhdləri ayrı-ayrı əsərlərdə özünü açıq-aydın büruzə verir, müəllif əsas ideyanı və qayəni nişan verən təfərrüatları yüksək sənətkarlıqla ümumiləşdirmək və fəlsəfi mənalandırmaq yolu ilə getməyə müvəffəq olur.

– Bəxtiyar Vahabzadənin epik yaradıcılığının ilk dövrü hesab olunan birinci mərhələdə (1944-1960-cı illər arası) qələmə alınan əsərlərin əslində sonrakı yaradıcılıq axtarışları üçün münbit bir zəmin rolu oynaması tədqiqat zamanı üzə çıxarılır. Bu daha çox ictimai-siyasi mövzularda yazılan epik nümunələrdə özünü açıq şəkildə büruzə verir. Məsələn, 1947-ci ildə yazılan "Aylı gecələr" poeması "Gülüstan", "Yollar-oğullar", "Mərziyə" və "İstiqlal" kimi son dərəcə aktual mövzularda qələmə alınan epik nümunələrdə qaldırılan azadlıq və istiqlal

ideyasının daha fəal və bitkin ifadəsi üçün təməl yaradır.

– Tədqiqat zamanı Bəxtiyar Vahabzadənin poemalarında özünü qabarıq əks etdirən poetik mühakimənin yeri və mövqeyi məsələsi də üzə çıxarılır. Bu mənada mənəvi-əxlaqi mövzularda işlənən "Etiraf", "Ləyaqət", "Qiymət", "Təzadlar", "Bağışlayın səhv olub!", "Amerika gözəli" kimi poemalarda qaldırılan problemlər öz aktuallığı və müasirliyi ilə seçilir.

– Bəxtiyar Vahabzadənin istiqlal nəğməkarı kimi Azərbaycanın azadlıq və müstəqilliyinə layiqli töhfəsi olaraq qələmə aldığı "Gülüstan", "Şəhidlər" və "İstiqlal" poemalarında qaldırılan ümummilli məsələlər, taleyüklü məqamlar təhlil və münasibət müstəvisinə çıxarılır, geniş ümumiləşdirmələr əsasında bu əsərlərin ictimai-məfkurə istiqaməti geniş və əhatəli təhlillər əsasında müəyyənləşdirilir.

– Yeri gəldikdə müxtəlif vaxtlarda qələmə alınan poemaların ideya-sənətkarlıq xüsusiyyətləri, dil-üslub, bədii təsvir vasitələrindən istifadə üsulları da tədqiqat zamanı diqqət mərkəzinə çəkilən məsələlərdəndir.

– Dissertasiya işində Bəxtiyar Vahabzadə yaradıcılığına həsr olunan məqalələr, müxtəlif münasibətlərlə qələmə alınan tədqiq xarakterli yazılar, ayrı-ayrı araşdırmalar elmi-nəzəri mübadiləyə cəlb edilmiş, onlara müasir ədəbiyyatşünaslıq elminin nailiyyətləri səviyyəsindən dəyər və qiymət verilmişdir

Dissertasiyanın sonunda istifadə olunmuş 167 adda ədəbiyyat siyahısı verilir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Bəxtiyar Vahabzadə və zaman // H.Zərdabi adına GDPİ-nin Elmi əsərlər məcmuəsi. Bakı: Mütərcim, 1999, s.102-103.
2. Şair sözünün hikməti // Gəncə Dövlət Universitetinin Elmi əsərlər məcmuəsi, 2001, № 1, s..32-33.
3. "Atılmışlar"dan alınan ibrət dərsi // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2007, № 1, s.72-75.
4. "Yollar-oğullar" poemasında azadlıq carçısı // Gəncə Dövlət Universiteti Professor-müəllimlərin, aspirant və gənc tədqiqatçıların elmi-tədqiqat və yaradıcılıq işlərinin toplusu-№1. Bakı: Nurlan, 2007, s.85-88.
5. Zaman və Vətən // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2008, № 2, s.225-229.

6. Zaman anlayışı Bəxtiyar Vahabzadə poemalarında // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2009, № 3, s. 169-172.
7. Odlar yurdunun azadlıq və istiqlaliyyətin poetik inkişafı // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2011, № 2, s. 137-139.
8. Narahat Şair // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2012, № 1, s.115-117.
9. Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" poemasında Füzuli şəxsiyyəti və sənətkar taleyi / Çağımızdan görünən orta əsrlər, AMEA-nın müxbir üzvü, Əməkdar Elm xadimi, professor R.Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi Konfransın Materialları, dekabr 2014. Bakı: Elm, 2014, s.573-577.
10. Bəxtiyar Vahabzadə yaradıcılığında Vətən sevgisi // Filologiya məsələləri, 2014, № 5, s.330-336.
11. Epik şeirdə Bəxtiyar Vahabzadənin ilk addımları // Filologiya məsələləri , 2014, № 6, s.445-451.
12. Əbədiyyət yolçusu-Bəxtiyar Vahabzadə // Filologiya məsələləri, 2014, № 7, s. 347-355.
13. Bəxtiyar Vahabzadənin yaradıcılıq sahəsindəki axtarışları // Filologiya məsələləri, 2014, № 9, s.326-333.
14. Проблема человека и личности в эпическом наследии Бахтияга Вагабзаде // Науково-виробичний журнал ДЕРЖАВА ТА РЕГИОНИ № 3-4, Серія: Гуманітарні науки. Украуни, Класичний приватний университет, 2015, с.29-34.
15. Vətəndaş yanğılı poeziya // Filologiya məsələləri, 2015, № 2, s. 276-281.
16. Bəxtiyar Vahabzadənin "Atılmışlar" poemasında mənəvi-əxlaqi problemlərə münasibət / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Görkəmli ictimai xadim, xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı: 2015, s.97-100.
17. İstiqlal şairi Bəxtiyar Vahabzadə /Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik Fondu, Azərbaycanşünaslığın Aktual Problemləri, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, I hissə. Bakı şəhəri, 5-7 may 2015-ci il. Bakı: Azərbaycan, s.495-498.

18. Bəxtiyar Vahabzadənin daxili azadlığı-azad vətəndaşlıq ideyası / Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr olunmuş "İnsan və Zaman" mövzusunda Respublika Elmi Konfransının Materialları. Bakı şəhəri, 26-27 noyabr 2015-ci il. Bakı: ADPU, 2015, s. 136-141.
19. Bəxtiyar Vahabzadə poemalarında sosial mühitin təsviri / Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 4 iyun 2015-ci ildə keçirdiyi Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinə həsr edilmiş "Milli dəyərlər və istiqlal uğrunda mübarizələr" adlı ümumrespublika Konfransının Materialları. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi. Risalə. Araşdırmalar toplusu, 2015, № 11, s. 64-70.
20. Azərbaycanın bütövlüyü Bəxtiyar Vahabzadənin epik irsində / Ulu öndər Heydər Əliyevin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq elmi Konfransın Materialları. Bakı şəhəri, 3-5 may 2016, I hissə. Bakı: s. 392-394.
21. Tarix yaradan şair. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Müqayisəli Ədəbiyyatşünaslığın Aktual Problemləri elmi-nəzəri Konfransın Materialları. Bakı: 2017, s. 155-159.
22. Düşüncələr poeziyası. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın Aktual Problemləri VIII Beynəlxalq Elmi Konfransının Materialları. Bakı: 2017, s.255-259.
23. Bəxtiyarın "Fəryad"ı / Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. Nəsimi 600. Ey Nəsimi, cahanı tutdu sözün... AMEA-nın müxbir üzvü, Əməkdar Elm Xadimi, professor R.Azadənin xatirəsinə ithaf olunmuş III Beynəlxalq Elmi Konfransın Materialları. Bakı: 2017, s.321-325.
24. Bəxtiyar Vahabzadənin poemalarında sosial mühitin təsviri // Filologiya məsələləri, 2017, №3, s.359-363.
25. Aylı gecələr // Filologiya məsələləri, 2018, № 1, s.289-293.
26. Sadə adamlar // Filologiya məsələləri, 2018, № 3, s.294-298.

**Эгана Сабир кызы Гусейнова**

# ПОЭМЫ БАХТИЯРА ВАХАБЗАДЕ

## РЕЗЮМЕ

В поэмах Бахтияр Вахабзаде широко затронуты интересующие его темы и проблемы, адресованные общественности. В них со всей широтой и мощностью показаны идеи свободы и независимости, герои всегда в борьбе за право и справедливость, в поисках нового. Проводя различные исследования в области изучения наследия Б.Вахабзаде, написаны ценные монографии. Но к научному анализу не привлечены поэмы, как одна из важных сторон его творчества. Хотя в некоторых работах и статьях частично и ведётся речь об этом, широкие исследования отсутствуют.

Объект диссертационной работы составляют творческие особенности богатых темами и идеями поэм. Среди образцов эпической поэзии XX века и в годы национальной независимости поэмы БахтиярВахабзаде, имеют важное значение с точки зрения охвата широкого круга тем, постановки проблем и художественного решения описания противоречий жизни и времени, проникнуты глубокими художественными обобщениями, посвящёнными актуальным проблемам, волнующим человечество.

Исследуемые в диссертационной работе проблемы творчества решены в ракурсе исторических национальных традиций азербайджанского литературоведения. В связи с характером и направленностью научного исследования основным принципом избраны историко-сопоставительный и типологический методы.

I глава диссертации «Поэма как форма выражения в поэзии Бахтияра Вахабзаде» состоит из 2-х разделов. В первом разделе изучается «**Жанр поэмы и его место в творчестве Бахтияра Вахабзаде**». Второй раздел I главы называется «Определение жанра, сюжета и проблематики поэм Бахтияра Вахабзаде».

Вторая глава диссертационной работы анализирует «**Изображение общественных проблем в поэмах Бахтияра Вахабзаде**». Первый раздел этой главы называется «**Общество, человек и время в поэмах Бахтияра Вахабзаде**». Во втором разделе «**Гражданская**

**позиция в изображении духовно-нравственных проблем**» показано, что в отдельных областях деятельности Бахтияра Вахабзаде творческими достоинствами можно считать поэмы, являющиеся составной частью его поэтического наследия, отличающиеся полной глубиной и системностью.

III глава диссертации анализирует «**Воплощение общественно-политических явлений в поэмах Бахтияра Вахабзаде**». Первый раздел главы называется «**Проблема общественного конфликта и характера в поэмах**». Во втором разделе «**Поэтическая летопись борьбы за национальную независимость в поэмах**» подчёркивается, что Б.Вахабзаде, прежде всего, поэт независимости, что, без сомнения, является главным достоинством его творческой деятельности.

Приведённые выводы составляют 7 пунктов; завершает 4-страничное заключение.

В конце диссертации приведён состоящий из 167 наименований список использованной литературы.

**Yegana Sabir gizi Huseynova**

## BAKHTIYAR VAHABZADE'S POEMS

## SUMMARY

In the poems the themes and problems that Bakhtiyar Vahabzade thought about were extremely wide and addressed to the community. Freedom and independence ideology are majectic and broad, characters fights for justice and looks for innovation . Various studies were carried out in the study of Bakhtiyar Vahabzade's heritage and valuable monographs were written, but his poems that were one of the important parts in his creative activity were not investigated, although in some researches and articles were written about it, but were not widely studied. The object of dissertation is consists of Bakhtiyar Vahabzade's poem creativity which were rich with the features of theme, idea and craft. In the samples of epic poem in XX century and years of National independence, Bakhtiyar Vahabzade's poem are great of importance in terms of its theme, artistic solution of problems, contradictions of life and time,dedicating to actual problems that suggest humanity and being artistic generalization. In the dissertation the creativity problems were studied on the basis of national traditions of Azerbaijani literary criticism, historical-comparative and typological method was selected as a basic principle depending on the nature of scientific research. I chapter of dissertation called "**The poem as an expression form of Bakhtiyar Vahabzade's poetry**" is studied in 2 subsections. In the first subsection "**Poem genre and its place in Bakhtiyar Vahabzade's creativity"** is researched. Second part of I chapter is called "**Definition of genre, plot and problematic in Bakhtiyar Vahabzade's poems"**.

In II chapter of Dissertation "**Description of society problems in Bakhtiyar Vahabzade's poems**" is analyzed. I part of this chapter is called "**Society, human and time in Bakhtiyar Vahabzade's poems**". In the second part of II chapter called "**Civil position in the description of moral and spiritual problems**" is noted that in Bakhtiyar Vahabzade's epic heritage it is possible to observe some creativity peculiarities of his separate creative activity too.

In the III chapter called "**Reflection of social and political problems in Bakhtiyar Vahabzade's poems**" is analyzed and first part of

this chapter is called “**The problem of social conflict and character in the poems**”. In the second part of III chapter called “**Poetic chronicle of national independence struggle in the poems**” it is noted that Bakhtiyar Vahabzade is an idependence poet first of all and this characteristic features is defined exactly his creativity activity and peculiarities.

The conducted researches ends with the **result** consisting of seven couplets and four- page.

At the end of dissertation is given reference with 167 titles.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə
-----------------------------------------------------
AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКА НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУ и НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**ЭГАНА САБИР кызы ГУСЕЙНОВА**

# ПОЭМЫ БАХТИЯРА ВАХАБЗАДЕ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по филологии

**БАКУ – 2018**